# Böyük Qayıdış qürur və sevinclə davam edir



**İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı uğurla icra edilir. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan Cəbrayıl şəhərinə yola salınıb.**

Bu mərhələdə Cəbrayıl şəhərinə 44 ailə - 166 nəfər köçürülüb. Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

**(davamı 5-ci səhifədə)**

GÜNÜN SİYASİ NƏBZİ



# Böyük Qayıdış qürur və sevinclə davam edir

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 50 mindən çox insan yaşayır.





Otuz ilə yaxın işğal altında qalmış doğma torpaqlarımıza - Ağdama, Xocalıya, Cəbrayıla, Füzuliyə, Zəngilana, Laçına, Kəlbəcərə və Şuşaya böyük ümidlərlə, qürurla və sevgi ilə geri dönmək xalqımız üçün böyük qürur hissi doğurur. Bu qayıdış, Azərbaycanın müasir tarixində mühüm bir dönüş nöqtəsidir. Cəbrayıl kimi illərlə düşmən tapdağı altında qalmış rayonların dirçəlməsi, yenidən qurulması, həm şəhidlərin qanının yerdə qalmadığını göstərir, həm də Azərbaycan xalqının sarsılmaz iradəsini dünyaya nümayiş etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu qayıdış prosesi, strateji baxımdan planlaşdırılmış və davamlı inkişafı təmin edən milli bir missiyaya çevrilmişdir.

Dövlət başçısı işğaldan azad edilmiş digər rayonlarda olduğu kimi, Cəbrayıla da səfərlərində zamanı çoxsaylı infrastruktur layihələrinin təməlini qoyub və açılışlarını edib. Yenidən qurulan Cəbrayılda diqqətdə saxlanılan sahələrdən biri də təhsildir. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunan rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. İşğaldan azad edilən ərazilərdə təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə hazırda mühüm işlər görülür. Bu, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əksini tapıb.

Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəb binasının açılışı ötən ilin oktyabrında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən olub. Ərazisi 2,7 hektar olan məktəbdə 40 sinif və 5 inzibati otaq var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri vəsaitlər ilə təchiz edilib. Təhsil ocağında, həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil ocağının həyətində abadlıq işləri görülüb, futbol, basketbol, voleybol və açıq oyun meydançaları yaradılıb. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Cəbrayıl şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Prezidenti 2021-ci ildə Sərəncam imzalayıb. Təhsil ocağının təməli 2021-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Rayonda, həmçinin sənaye müəssələri yaradılır ki, bu da iqtisadiyyatın inkişafına və keçmiş məcburi köçkünlərin işlə təmin olunmasında böyük rol oynayacaq. Burada "Azərsun Holdinq" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksi yaradılacaq. Qazlı və qazsız su, soyuq çay, soyuq qəhvə, limonadlar, təbii meyvə şirəli içkilərin istehsal ediləcəyi müəssisənin illik istehsal gücü 250 milyon PET şüşə, 350 milyon alüminium tənəkə qutu təşkil edəcək. Ölkəmizdən valyuta axınının qarşısının alınmasına töhfə verəcək alkoqolsuz içkilərin istehsalı kompleksi müasirlik və dayanıqlılıq prinsiplərinə uyğun avadanlıqlarla təmin ediləcək. Müəssisədə alternativ enerji mənbələrindən istifadə olunacaq. Tam istehsal gücü ilə fəaliyyətə başladıqdan sonra kompleksdə Cəbrayıl şəhərinə qayıdacaq 300-ə yaxın sakinin işlə təmin edilməsi nəzərdə tutulur. Alkoqolsuz içkilərin istehsalı kompleksinin istismara verilməsi üçün ilkin mərhələdə 35 milyon manat həcmində investisiya qoyulub.





Bundan başqa, rayonda təməli qoyulan müəssələrdən biri də "Hicaz quşçuluq" damazlıq yumurta istehsalı fabrikidir. Müəssisə 3 sahədən - damazlıq yumurta, inkubator və yem fabriklərindən ibarət olacaq. Birinci mərhələdə 30 hektar ərazidə hər biri 1600 kvadratmetr olmaqla 24 damazlıq yumurta istehsalı sahəsi tikiləcək. Burada illik 24 milyon ədəd damazlıq yumurta istehsal ediləcək. Bununla yanaşı, 2 hektar ərazidə saatda 40 ton istehsal gücünə malik yem fabriki və inzibati bina inşa olunacaq. Həmçinin 2 hektar ərazidə yerləşən soyuducu anbar və illik 24 milyon ədəd yumurta tutumuna malik inkubasiya fabriki fəaliyyət göstərəcək. İstehsal zamanı müasir avadanlıqlardan istifadə olunacaq. Müəssisədə istehsal olunan məhsulun keyfiyyətinin daim nəzarətdə saxlanılması məqsədilə ən müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya da fəaliyyət göstərəcək. Layihə üzrə 150 daimi iş yerinin yaradılması nəzərdə tutulub.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən iqtisadi strategiyanın əsas istiqamətlərindən biri sənaye sahəsinin, xüsusilə də qeyri-neft sektorunun dinamik inkişafıdır. Müasir dövrün iqtisadi çağırışlarına uyğun olaraq qabaqcıl modellərin - sənaye parkları və məhəllələri kimi sənaye zonalarının yaradılması və onların fəaliyyət dairəsinin genişləndirilməsi mühüm əhəmiyyət daşıyır. İşğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, yeni əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin artan potensialı Azərbaycanın sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları azad edilmiş ərazilərimizə investorların marağını artırır.

Cəbrayıl rayonunun regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir. Dövlətimizin başçısının 2021-ci il 4 oktyabr tarixli Fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Sənaye parkının əsas fəaliyyət istiqaməti kimi logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır. Ərazisi 200 hektar olan sənaye parkı logistik imkanlar baxımından əlverişli ərazidə təşkil olunub ki, bu da sahibkarların diqqətini cəlb edən əsas məqamlardan biridir.

**Musa BAĞIRLI,**
**"Respublika".**